

ADİL MİSİRLİ

*Adil Misirli (Adil Əli oğlu Əhmədov) 1956-cı ildə Ağcabədi rayonunun Salmanbəyli kəndində anadan olub. Moskva şəhhərində M. Qorki adına Ədəbiyyat İnstitutunu bitirib. Dövrü mətbuatda müntəzəm çap olunur. Ağcabədidə çıxan "Aran" qəzetində çalışır.*

# DƏRDİ ÖZÜNDƏN BÖYÜK VƏTƏN

Biçilmiş göy otun,
Ağrı dolu
Göy üzü
Ağrıdır gözlərimi...

Dərdlər
Bütün rəngləri
Öyrətdi mənə.
Rənglərin də
Dərdim kimi
Bir
Rəngi olsaydı...

Məni
Qəbrə
Sartıb salacaq
Bu ağrı!
Qoymayacaq
Dərdini çəkəm
Özgə dərdlərimin...

Dağ kefindən
Dağ olmadı.
Dağa çəkilən dağlar
Dağ etdi dağı.

Səni and verirəm
Məni
Sevdiyin sevgiyə
İnanma,
Səni sevdiyimə...

Yaddaşımdan çox
Yanağımda
Qalıb izin.
Səni xatırlayanda
Qızarır,
Yanır üzüm...

Özümdən
Çox olmaq istədim.
Özümdən az oldum.
Özüm qədər
Ola bilmədim...

Qəribəymiş
Bu dünyanın işi,
Bezdirərmiş,
Sevən kişini
İncə qadın nəvazişi...

Payız
Çox çəkdi ki,
Ömrü uzana.
Qış
Ağartdı saçlarını...

Qəm yığnağıyam!
Sevincdən
Xəbərim yox.
Kədər, qüssə
Yeyir içimi.
Dərmanım yox,
Zəhərim yox!

Yaşamaqçün
Ömrün hamısını,
Kərtənkələ
Qurban verdi
Bədəninin yarısını...

Böyük Vətən,
Bölük Vətən!
Və bir də
Dərdi özündən
Böyük Vətən!

Tənha deyiləm,
Özümləyəm!

Sevinəndə
kədərlənirəm...
sevincimin az olan
qədərinə...